**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NEFT-KİMYA SƏNAYESİNDƏ FƏRDİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53- İqtisad elmləri

İddiaçı: **Fərid Xanbaba oğlu Xankişiyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Odlar Yurdu Universitetində "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Məhəbbət Aşur oğlu Məmmədov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dos.
**Nəsimi Bəşir oğlu Kamalov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dos.
**Mahir Həmzə oğlu Zeynalov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Müşfiq Cəmil oğlu Atakişiyev**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Qənimət Əsəd oğlu Səfərov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanda bazar iqtisadiyyatının vacib sektoru hesab edilən mikro və kiçik sahibkarlıq özündə çoxsaylı mülkiyyətçiləri cəmləşdirir ki, onların da içərisində fərdi sahibkarlar ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayırlar. Məhz fərdi sahibkarlar iqtisadiyyatın çoxşaxəliliyinin təmini, məşğulluq göstəricisinin artımı, yerli xammal resursları hesabına istehlak mallarının istehsalı baxımından böyük önəm daşıyır.

Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların əsas məqsədi xərclənən resurs vahidi üçün maksimum gəlir əldə etmək, həmçinin onu daim artırmaqdır.Belə tipli müəssisənin fəaliyyətinin səmərəliliyinin əsas göstəricisi bu hesab edilir. Müəssisənin səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlər onun fəaliyyətinin bütün aspektlərini əhatə edir.Elə buna görə də fərdi sahibkarlıq subyektinin kiçik biznes xarakterli olması iddia olunur.Azərbaycanın qeyri-neft sektorunda 2021-ci ildə yaranan əlavə dəyərin 11-13%-i, işçilərin 9-10 %-i, məhsul buraxılışının 18,6 %-i fərdi (mikro) sahibkarlıq subyektlərinin payına düşür. Rəsmi statistik məlumatlara görə ölkənin emal sənayesində 24898 nəfər fərdi sahibkar çalışır, onların 3534 nəfəri və yaxud 14,2 %-i neft-kimya sənaye müəssisələrinin payına düşür. Bu sənaye sahəsində istehsal edilən məhsulun ayrı-ayrı illərdə 9-11 %-i məhz fərdi sahibkarlar tərəfindən reallaşdırılmışdır.

Bütün bu faktlar fərdi sahibkarlıq subyektlərində mövcud boşluqların aradan qaldırılması zərurətini ön plana çəkir və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsini aktuallaşdırır.Odur ki, son illər Azərbaycanda qəbul və təsdiq edilmiş Strateji Yol Xəritəsində, sosial-iqtisadi inkişafa dair Milli Prioritetdə, Ölkə Prezidentinin imzaladığı Fərman və Sərəncamlarda, neft sənayesinin inkişafına, eləcə də regional tərəqqiyyə dair proqramlarda fərdi (mikro) sahibkarlığın inkişafının zəruriliyi qeyd edilmişdir.

*Problemin öyrənilmə səviyyəsi.* Neft-kimya sənayesinin inkişafı və onunla bağlı olan iqtisadi və sosial, eyni zamanda təşkilati

problemlər, bu istiqamət üzrə iqtisadi potensiallardan lazımı səviyyədə istifadə edilməsi, sahibkarlığın inkişafı, neft-kimya sənayesinin ətraf-mühitə təsiri, onun qeyri-neft sektorunun inkişafında rolu, investisiya baxımından sahənin cəlbediciliyi, atılan innovativ addımlar bütövlükdə ölkə iqtisadiyyatının inkişafında rolu Azərbaycan alimlərindən: Ş.M.Muradov, Z.Ə.Səmədzadə, M.A.Məmmədov, T.N.Əliyev, M.C.Atakişiyev, A.B.Abbasov, R.P.Sultanova, Q.Ə.Səfərov, Q.S.Süleymanov, Ə.X.Nuriyev, İ.H.İbrahimov, G.Z.Yüzbaşıyeva, E.Y.Məmmədov, S.A.Abbasov, İ.H.Alıyev, S.S.Səməndərov, Ş.T.Əliyev, R.T.Əliyev, A.N.Muradov, Ş.S.Qafarov, M.H.Zeynalov, N.B.Kamalov, K.H.İsayev, A.G.Hüseynov, R.K.İsgəndərov, S.M.Səlimov, İ.B.İsmayılov, M.Q.Musayev və başqaları, xarici tədqiqatçılar arasında isə A.Fedotov, V.Avtomonov, L.Abalkin, A.Arxipov,L.Nexoroşeva, M.Blauçun, A.Qorodetskiy, V.Burov, Nikolaou-Smakoviti, J.Volfers, B.Stevenson,P.Druker, M.Fridman, F.Xaek, A.Mishin, A. Hosking və digərləri tərəfindən araşdırılmış, toxunulan problemlərin həllinə dair sahə üzrə vacib olan tövsiyyələr verilmişdir.

Yuxarıda adlarını qeyd etdiyim müəlliflər tərəfindən aparılan tədqiqatların istər elmi, istərsə də praktiki baxımından böyük əhəmiyyətə malik olmasını qeyd edərək onu da vurğulamaq lazım gəlir ki, fərdi sahibkarlığın ölkənin sosial-iqtisadi inkişafında layiqli yerinin təmin olunması məqsədi ilə tədqiqat obyektinin tərkib hissələri kimi onun iqtisadi məzmunu, müsbət və mənfi cəhətləri, inkişaf şərtləri və qanunauyğunluqları, stimullaşdırlması mexanizmlərinin nəzəri cəhətdən öyrənilməsi və elmi əsaslandırılması ön plana çəkilir. Bunlarla yanaşı neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri bu vaxtadək tədqiq edilməmişdir və bu da seçilən mövzunun aktuallığını şərtləndirlmişdir.

**Tədqiqat obyekti** kimi Azərbaycanın neft-kimya sənayesi və orada fəaliyyətdə olan fərdi sahibkarlar çıxış edir.

**Tədqiqatın predmeti** isə neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, onun inkişafının stimullaşdırılması istiqamətləri ilə bağlı elmi araşdırmaları və mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin müasir vəziyyətinin və inkişaf xüsusiyyətlərinin təhlil edilib öyrənilməsi, iqtisadi səmərəliliyinin, istehsal imkanlarının artırılması, resurslardan səmərəli istifadə, subyektlərin stimullaşdırılmasına dair elmi cəhətdən əsaslandırılmış kompeks xarakterli təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Dissertasiya işinin məqsədinə müvafiq olaraq tədqiqatda aşağıda sadalanan vəzifələr müəyyən edilmişdir :

-Fərdi sahibkarlığın təşkili və idarə edilməsinə həsr edilmiş ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi əsasında onun mahiyyətini, növlərini və fərqləndirici xüsusiyyətləri yeni aspektdə izah etmək ;

-Fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin dövlət tənzimlənməsi üzrə beynəlxalq təcrübədən Azərbaycanda istifadə imkanlarını müəyyən etmək ;

-Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlıq subyektlərinin işinin iqtisadi qiymətləndirilməsinin metodoloji aspektlərini formalaşdırmaq ;

-Azərbaycanda neft-kimya sənayesinin xarakterik xüsusiyyətlərini açıqlamaq və onun ölkə iqtisadiyyatının inkişafındakı rolunu müəyyən etmək ;

-Rəsmi statistik, ilkin uçot məlumatları əsasında neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətini səciyyələndirmək, onun təşkili vəziyyətini təhlil edərək müvafiq ehtiyat imkanlarını aşkara çıxarmaq ;

-Respublikamızda neft-kimya sənayesində fərdi sahibkarlığın inkişafına mane olan amillərin aradan qaldırılması və inkişafının stimullaşdırılması təkliflərini elmi cəhətdən işləyib hazırlamaq ;

-Fərdi sahibkarlıq fəaliyyətində vergi və kredit mexanizminin təkmilləşdirilməsi istiqamətində təklifləri hazırlayıb təqdim etmək ;

**Tədqiqat metodları** kimi dünya ölkələrinin bu sahədəki təcrübəsi ilə müqayisə, sistemli təhlil, məntiqi ümumiləşdirmə, statistik təhlil və s. tipli metodlar tətbiq edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-Neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin təşkili və onun səmərəliliyinin yüksəldilməsi ilk dəfədir ki, tədqiq edilmişdir **;**

-Fərdi sahibkar anlayışının izahında mövcud olan nəzəri fikirlərin qruplaşdırılması və təkamülünün nümayişi yolu ilə sistemli təhlili aparılmışdır [7];

-Fərdi sahibkarlıq fəaliyyətinin növləri,onların əhatə dairəsi, konsepsiyası, sosial-iqtisadi vəzifələri, funksiyaları və fərdi keyfiyyəti təsnifləşdirilmişdir [16];

-Azərbaycanda fərdi (mikro) sahibkarlığa dəstəyin təşkilinin prinsipal sxemi, neft-kimya sənayesində fərdi sahibkarlıq subyektlərində keçiriləcək monitorinqin alqoritmi, eləcə də həmin sahibkarlarla fiskal və dövlət orqanları arasında formalaşan qarşılıqlı münasibət sistemi sxem şəklində təklif edilmişdir [13] **;**

-Neft-kimya sənayesində fəaliyyət göstərən fərdi sahibkarların işini qiymətləndirmək üçün sistem göstəricilər (indikatorlar) müəyyən edilmişdir [12] **;**

-Neft-kimya sənayesində fərdi və mikro sahibkarlığa dəstək məqsədli proqramının işlənilməsi iqtisadi cəhətdən əsaslandırılmış və onun məzmununda əks etdirəcək istiqamətlər göstərilmişdir [12; 13];

-Fərdi sahibkarlıq fəaliyyətinin beynəlxalq təcrübəyə uyğun vergi sisteminin və kreditləşmə mexanizminin təkmilləşdirilməsinə dair təkliflər təqdim edilmişdir [17; 21] ;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas müddəaları, hazırlanan əməli nəticə və təkliflər respublika sənayesində, o cümlədən neft-kimya sənayesində fərdi sahibkarlığın inkişafının sürətləndirilməsində, onların fəaliyyətinin kompleks qiymətləndirilməsində, sənayedə fərdi sahibkarlığın inkişafının stimullaşdırılması üçün konkret proqramların hazırlanmasında, fərdi sahibkarlıq fəaliyyətinin tənzimlənməsində, kredit mexanizminin və s. təkmilləşdirilməsi prosesində, strategiya və konsepsiyaların hazırlanmasında, bu sənaye sahəsi üzrə idarəetmə fəaliyyətinin təkmilləşdirilməsində alternativ mənbə kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri, metodoloji və əməli xarakterli təkliflər, tövsiyyələr müəllif tərəfindən müxtəlif ölkələrdə keçirilmiş 7 respublika əhəmiyyətli,

eləcə də 8 beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında çap edilmiş, müvafiq sertifikatlara və birinci dərəcəli diploma layiq görülmüşdür.

Dissertasiya işinin mövzusuna dair 9 xaricdə (onlardan ikisi yüksək səviyyəli, beynəlxalq bazarda indeksləşən jurnalda) olmaqla AAK-ın tövsiyyə etdiyi elmi jurnal və Konfrans materiallarında 8,5 ç.v. həcmində 21 məqalə və tezis çap olunmuşdur.

**Dissertasiya işi Odlar Yurdu Universitetində yerinə yetirilmişdir.**

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya: girş - 13441 işarə, I fəsil - 68038 işarə, II fəsil - 74366 işarə, III fəsil - 102721 işarə, nəticə - 9326 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 25228 işarə daxil olmaqla ümumilikdə 281387 işarədən ibarətdir. Dissertasiyada 22 cədvəl, 4 qrafik, 7 şəkil verilmişdir.Onun həcmi cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyatlar nəzərə alınmadan dissertasiya işinin həcmi 232738 işarə təşkil edir.

# DİSSERTASİYANIN İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**FƏSİL I. Fərdi sahibkarlıq fəaliyyətinin təşkili və idarə edilməsinin nəzəri-metodoloji əsasları**

1.1.Fərdi sahibkarlığın mahiyyəti, növləri və fərqləndirici xüsusiyyətləri

1.2.Fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin dövlət tənzimlənməsi

1.3.Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlıq subyektlərinin işinin iqtisadi qiymətləndirilməsinin metodoloji aspektləri

**FƏSİL II. Azərbaycanın neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin mövcud vəziyyətinin qiymətləndirilməsi**

2.1.Neft-kimya sənayesinin xarakterik xüsusiyyətləri və onun ölkə iqtisadiyyatının inkişafında rolu

2.2.Fərdi sahibkarlıq fəaliyyətinin ümumi səciyyəsi və sənaye sahəsinin bu göstərici üzrə inkişaf tempi

2.3.Neft-kimya sənayesində fəaliyyət göstərən fərdi sahibkarların fəaliyyətinin təhlili və emal sənayesinin ümumi həcmində onların payı

**FƏSİL III. Neft-kimya sənayesində fərdi sahibkarlığın səmərəli təşkilinin başlıca istiqamətləri**

3.1.Fərdi sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənmə mexanizminin yeni çağırışlar konteksində formalaşdırılması

3.2.Fərdi sahibkarlıq fəaliyyətində tətbiq edilən vergi sistemin təkmilləşdirilməsi

3.3.Fərdi sahibkarların kredit təminatı mexanizminin əlverişli şəkildə modernləşdirilməsi

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS ELMİ MÜDDƏALAR

**Müddəa 1.Mövzuya dair ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi və neft-kimya sənayesinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla fərdi sahibkarlığın mahiyyəti, növləri, sosial-iqtisadi vəzifələri, əsas funksiyaları və vacib fərdi keyfiyyətləri, müsbət və mənfi cəhətlərinə dair sistemli yanaşma.**

Bazar şəraitindəki dəyişikliklərə dərhal reaksiya verə bilən fərdi sahibkarlıq subyektləri iqtisadiyyata lazımi rahatlıq verir, tələbat artdıqca sürətlə inkişaf edir. Tələbin azalması halında fərdi sahibkarların müəyyən bir hissəsi işlərini bağlayır və ya digər fəaliyyətlərə yönəlir, bunun sayəsində onlar iqtisadi vəziyyətdəki dalğalanmaların aradan qaldırılması vəzifəsini yerinə yetirir.

Fərdi sahibkarlıq fəaliyyətinin mahiyyətini daha aydın şəkildə izah etmək üçün ilk növbədə onun növlərini fərqləndirmək lazımdır.

Fərdi sahibkarlığın ən geniş yayılmış növlərindən biri – adi (sadə) fəaliyyət növüdür. Bu növlə fəaliyyətə başlayan sahibkar qeydiyyatdan keçdikdən sonra məşğul olur, heç bir icazəyə, sazişə, lisenziyaya və sairəyə ehtiyac duyulmur, əhatə dairəsi olduqca genişdir və zaman keçdikcə onların sayı, təyinatı arta bilər.

Lisenziya əsasında fəaliyyət göstərən fərdi sahibkarlıq növü – icra orqanlarının icazə verdiyi və təsdiq etdiyi siyahı əsasında həyata keçirilir və xüsusi razılıq tələb edir.

Xüsusi icazə (saziş) əsasında yerinə yetirilən fərdi sahibkarlıq fəaliyyəti lisenziya tələb edən fəaliyyətlər siyahısına daxil edilməsə də, onun icrası xüsusi icazə və yaxud da nəzarət orqanı ilə bağlanmış saziş əsasında həyata keçirilir.

Qapalı fəaliyyət – fərdi sahibkarlar tərəfindən yerinə yetirilən hərbi təyinatlı, zəhər, narkotik vasitə və sairənin işlənilməsi, istehsalı və satışı işlərinin icrasını özündə əks etdirir.

Əlavə olaraq fərdi sahibkarlığın konsepsiyasını, sosial iqtisadi vəzifələrini və eyni zamanda xarakterik xüsusiyyətlərini qeyd etmək lazımdır (şəkil 1.) .




**Şəkil 1. Fərdi sahibkarlığın mahiyyəti, sosial-iqtisadi vəzifələri və xarakterik xüsusiyyətləri (müəllif tərəfindən tərtib edilmişdir).**

Fərdi sahibkarın əsas funksiyaları və şəxsi keyfiyyətləri tərəfinizdən tərtib edilən 2 saylı şəkildə öz əksini tapmışdır.




**Şəkil 2. Fərdi sahibkarın əsas funksiyalarının və vacib fərdi keyfiyyətlərinin təsnifatı (müəllif tərəfindən tərtib edilmişdir).**

Ümumilikdə onu da qeyd edək ki, fərdi sahibkarlıq fəaliyyəti özünün müsbət və mənfi tərəfləri ilə xarakterizə edilir.İşdə onların təsnifatı öz əksini tapmışdır.

Fərdi sahibkarlıq fəaliyyətinin hər zaman bazar iqtisadiyyatı şəraitində mövcud olması mütləq hesab edilməlidir.Belə ki, resurslar və tələbat çox vaxt yerli və spesifik olurlar, geniş miqyaslı istehsal üçün imkan yaratmırlar.Fərdi sahibkarlığın inkişafı isə yerli əhalinin

alıcılıq qabiliyyətinin artmasından, xidmət infrastrukturunun inkişafından asılıdır və dövlət tərəfindən onlar üçün müəyyənləşdirilmiş vergi yükü ilə məhdudlaşır.

**Müddəa 2.Yeni çağırışlar kontekstində fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin dövlət tənzimlənməsi üzrə istiqamətləri, onların fiskal və dövlət orqanları ilə qarşılıqlı münasibətlər sistemi, bu sahədə dövlətin əsas vəzifələri, fərdi sahibkarlığın formalaşması və inkişafının tənzimlənməsi istiqamətləri;**




**Şəkil 3. Azərbaycanda fərdi (mikro) sahibkarlığa dəstəyin təşkilinin prinsipal sxemi (müəllif tərəfindən işlənilmişdir).**

Fərdi sahibkarlığın yüksək sosial-iqtisadi əhəmiyyətinin olmasını nəzərə alaraq bu istiqamətdə baş verən hadisələri təhlil etmək, inkişaf mənbələrini müəyyənləşdirmək çox vacibdir. Dünyanın əksər ölkələrində bir-biri ilə əlaqəli üç hədəf üstünlük təşkil edir: milli istehsalda sabit böyümə, müəyyən bir məşğulluq səviyyəsini saxlamaq və qiymət səviyyəsini sabitləşdirmək.

Fərdi sahibkarlığın dövlət tərəfindən tənzimlənməsində onlara dövlət köməyi, subyektlərin dövlət qeydiyyatı, bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün qaydalarının müəyyənləşdirilməsi, sahibkarların istər hüquqi, istərsə də qanuni cəhətdən mənafelərinin dövlət tərəfindən qorunması və s., sahibkarlıq fəaliyyətinə dövlət nəzarəti, sahibkarın məsuliyyəti məsələlərinin hüquqi tənzimlənməsi, bu sahədə hüquq normalarının yetkin və təkmil olması, inkişaf etmiş dövlətlərin təcrübəsinə və ölkəmizdə sahibkarlığın inkişaf səviyyəsinə uyğunluğu böyük önəm daşıyır.

Qeyd edilənlərlə yanaşı fərdi (mikro) sahibkarlığa dövlət dəstəyi digər istiqamətlərdə də həyata keçirilməlidir.Hesab edirik ki, onun təşkili özündə şəkildəkiləri də ehtiva etməlidir (şəkil 3.).




**Şəkil 4. Azərbaycanın neft-kimya sənaye müəssisələrində fəaliyyət göstərən fərdi sahibkarlarla fiskal və dövlət orqanları ilə qarşılıqlı münasibətlər sisteminin prinsipal sxemi (Müəllif tərəfindən işlənilmişdir).**

Fərdi sahibkarlarla fiskal və dövlət orqanları arasında qarşılıqlı münasibətlər sistemi formalaşmaqdadır. Azərbaycanın neft-kimya sənayesində fəaliyyət göstərən fərdi sahibkarların adı çəkilən münasibətlər sisteminin prinsipal sxemini bu şəkildə göstərmək olar (Şəkil 4.)

Həmin qarşılıqlı münasibətlər kontekstində qarşıda duran əsas vəzifəsi aşağıdakı fəaliyyətləri həyata keçirməkdir: -mal və xidmətlərinin rəqabət qabiliyyətinin artması, ixracatın inkişafı və dövlətin beynəlxalq bazarlara çıxışı; -əlaqələrin gücləndirilməsi də daxil olmaqla ən böyük təşkilatların strukturlarının inkişafı; -patent siyasətinin həyata keçirilməsi və s. .

Fərdi sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi məqsədi ilə kompleks xarakterli təşkilati-iqtisadi tədbirlərin icrasına zəruri ehtiyac duyulur.İşdə həmin tədbirlər tədqiq edilən sənaye sahəsinin inkişafı kontekstində formalaşdırılmışdır.

**Müddəa 3. Sənaye fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin işinin qiymətləndirilməsi üçün formalaşan modellər və sistem göstəricilərin təsnifatı;**

Fərdi sahibkarlıq fəaliyyətinin istehsal səmərəliliyini ölçmək üçün bir qayda olaraq, gəlirlilik, istehsalın rentabelliliyi, kapital dövriyyəsi göstəricilərinin hesablanmasına üstünlük verilir. Ancaq həqiqət budur ki, təcrübədə istifadə olunan həmin maliyyə göstəriciləri reallığı tam əks etdirmir. Müəssisənin daxili iqtisadi quruluşu istehsal, maliyyə fəaliyyətlərinin birliyini özündə ehtiva etməlidir.Odur ki, hər fərdi sahibkarlıq subyektinin maliyyə vəziyyətinin qiymətləndirilməsi, istehsal səmərəliliyinin ölçülməsi üçün tələb olunanlarla yanaşı özünəməxsus göstəricilər sistemindən istifadə də önəmli hesab olunur.

Qeyd edilən istehsal sahəsinə gəldikdə isə ümumi qiymətləndirmə bir sıra indikatorların (göstəricilərin) köməyi ilə aparılmalıdır.Həmin indikatorlar bir neçə istiqamət üzrə təsnifləşdirilməlidir (şəkil 5.).Onların sırasına fərdi sahibkarların məhsul istehsalçısının qiymət indeksini də əlavə etmək vacibdir.

Hazırda tədqiq edilən sənaye sahəsində fərdi sahibkarların səmərəli fəaliyyətinə mane olan bir sıra ciddi problemlər mövcuddur.Onları aradan qaldırmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək lazımdır: •fərdi

sahibkarlıq müəssisələrini dəstəkləmək üçün yaradılmış infrastrukturdan istifadənin səmərəliliyinin artırılması ; •maliyyə, kredit və investisiya dəstəyinin təmin edilməsi ; • kadr, elmi-metodiki və informasiya dəstəyinin göstərilməsi və s.

**Fərdi sahibkarlığın inki şaf səviyyəsi nin və səmərəlili yinin qiy mət ləndirilməsi üzrə sis tem göstəricilər**

| | |
|---|---|
| Fərdi (mikro) biznesin fəaliyyəti nin miqyasını əks etdirən göstərici lər. | Fərdi (mikro) sahibkarlıq subyektlərinin ümumi sayı:<br>▪ İl ərzində yeni yaradılan fərdi (mikro) subyektlərin sayı;<br>▪ İl ərzində ləğv edilən fərdi (mikro) subyektlərin sayı;<br>▪ Fərdi (mikro) sahibkarların müəssisənin ümumi işçilərinin sayındakı payı;<br>▪ Fərdi (mikro) sahibkarlıq subyektlərinin neft-kimya sənayesinin alt sahələri üzrə bölgüsü;<br>▪ Fərdi (mikro) sahibkarların sahə işçilərinin hər 1000 nəfərinə düşən sayı;<br>▪ Fərdi (mikro) sahibkarlıq subyektinin aktivlərinin məbləği;<br>▪ Həmin subyektlərin əsas vəsaitlərinin dəyəri;<br>▪ Fərdi (mikro) sahibkarlarıq subyektləri tərəfindən yerinə yetirilən işin (xidmətin, dövriyyənin) dəyəri; |
| Fərdi (mikro) müəssisənin in-vestisiya aktivliyi | ▪ Əsas kapitala yönəldilən investisiya ;<br>▪ Fərdi (mikro) subyekt tərəfindən əsas kapitala yönəldilən investisiyanın sahədəki payı ;<br>▪ İnvestisiyanın əsas kapitala nisbəti ;<br>▪ İnvestisiyanın xalis mənfəətə nisbəti ; |
| Fərdi (mikro) müəssisələrin innovasiya aktivliyi göstəriciləri. | ▪ İnnovasiyayönümlü (aktiv) sahibkarlıq subyektlərinin sayı ;<br>▪ Tətbiq edilən yeniliklərin sayı ;<br>▪ Fərdi (mikro) müəssisənin əmlakının strukturunda qeyri-material aktivlərin payı;<br>▪ Müəssisələrinin innovasiya məhsulunun ümumi məbləği;<br>▪ Fərdi (mikro) müəssisənin innovasiya məhsulunun xüsusi çəkisi; |
| Fərdi (mikro) sahibkarlıq subyektinin fəaliyyətinin səmərəliliyini xarakterizə edən göstəricilər | ▪ Xalis dövriyyə kapitalı ;<br>▪ Satışdan daxil olmalar ;<br>▪ Fond və material verimi;<br>▪ Əmək məhsuldarlığı ;<br>▪ Satışdan əldə edilən mənfəət ;<br>▪ Xalis mənfəət ;<br>▪ Məhsulun rentabelliyi ;<br>▪ Aktivlərin rentabelliyi ;<br>▪ Debitor və kreditor borcları ;<br>▪ maliyyə dayanıqlığı ;<br>▪ Qalıq məhsulun həcmi ;<br>▪ Fərdi (mikro) sahibkarlıq subyektinin il ərzində əldə etdiyi mənfəətin sahə üzrə formalaşan mənfəətdə payı; |
| Sahənin sosial-iqtisadi inkişafında fərdi (mikro) biznesin rolunu | ▪ Fərdi (mikro) müəssisələrdə işçilərin sayı ;<br>▪ Bir fərdi (mikro) müəssisədə işçilərin orta siyahı sayı ;<br>▪ Sahədə çalışan işçilərin ümumi sayında fərdi sahibkarların xüsusi çəkisi ;<br>▪ Fərdi (mikro) müəssisələrdə işçilərin əmək haqqı fondu;<br>▪ Müəssisədə işçilərin orta aylıq əmək haqqısı;<br>▪ Sahə üzrə məhsul istehsalında fərdi (mikro) müəssisələrin payı;<br>▪ Vergi ödənişlərinin məbləği ;<br>▪ İl ərzində bir müəssisə tərəfindən ödənilən vergilərin məbləği ; |

**Şəkil 5. Neft-kimya sənayesinin inkişafında fərdi (mikro) biznesin rolu və vəziyyətinin qiymətləndirilməsi üçün zəruri sistem göstəricilərinin təsnifatı (Müəllif tərəfindən işlənilmişdir).**

Fərdi sahibkarlıq subyektlərində əsas kapitaldan istifadənin yaxşılaşdırılması müəssisənin maliyyə nəticələrində: istehsalın artması, istehsal xərclərinin azalması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, əmlak vergisinin azaldılması və balans mənfəətinin artması ilə əks olunur.

Odur ki, bu sahədə uğur qazanmaq üçün xüsusi yanaşmaya üstünlük verilməli və fərdi sahibkarlara xas olan onun işinin nəticələrini özündə ehtiva edən aşağıdakı vacib amillər nəzərə alınmalıdır :

Fərdi sahibkarların, ilk növbədə həm müəssisənin, həm də mövcud və potensial tərəfdaşlarının iqtisadi vəziyyətini real qiymətləndirməsi;

Fərdi sahibkarların, fəaliyyətin iqtisadi vəziyyətindəki kəmiyyət və keyfiyyət dəyişikliklərini aşkar etməsi, iqtisadi böyümənin modelləşdirməsi, iqtisadi inkişaf strategiyasını və taktikasını tənzimləməsi ;

Əldə edilən nəticələri rəqiblərlə müqayisə etməsi, sahibkarlıq subyektinin iqtisadi vəziyyətindəki əsas tendensiyaları ssenarilər şəklində proqnozlaşdırması.

**Müddəa 4. Azərbaycanın neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin təşkilinin mövcud vəziyyətinin çoxillik statistik, ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında təhlil edilib qiymətləndirilməsi nəticəsində aşkara çıxarılan ehtiyat imkanları və onlardan səmərəli istifadə edilməsinə dair işlənib hazırlanan kompleks xarakterli tədbirlər sistemi ;**

Son ilin statistik nəticələrinə əsasən qeyd edə bilərik ki, emal sənayesində fəaliyyət göstərən fərdi sahibkarların ümumi sıralamasında rezin və plastik kütlə məmulatlarının istehsalı sahəsi 2-ci sırada, neft-kimya sənayesi 12-ci sırada yerləşmişdir. Hər iki sahə üzrə ümumilikdə 3534 fərdi sahibkar fəaliyyət göstərmişdir.

Neft-kimya sənayesi üzrə fəaliyyət göstərən fərdi sahibkarların 7,0%-zi ümumi neft-kimya sənayesi üzrə və 93,0%-zi faizi isə rezin və plastik məmulatlar istehsalı sahəsində fəaliyyət göstərməkdədir. Onların məhsul istehsalında aşağıdakı dəyişikliklər baş vermişdir (Cədvəl 1.) .

Adı çəkilən subyektlərin istehsal etdikləri məhsulların həcmi artıb-azalan xətlə dəyişir.

Ölkənin iqtisadi rayonlarında rezin və plastik məmulatları istehsalında fəaliyyət göstərən fərdi sahibkarların illər üzrə istehsal etdikləri məhsul həcmləri haqqında məlumat 2 saylı cədvəldə göstərilmişdir.

**Neft-kimya sənayesi, rezin və plastik məmulatları istehsal edən fərdi sahibkarlıq subyektlərinin say tərkibi, onların istehsal həcmi, min man. .**

**Cədvəl 1.**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2017-ci ilə nəzərən dəyişmə tempi, faizlə |
| Neft-kimya sənayesi sahəsində fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal edilən məhsulun həcmi | 1800,0 | 1563,8 | 3265,9 | 3737,1 | 3094,6 | +71,9 |
| Neft-kimya sənayesinin ümumi məhsul həcmində payı, faizlə | 0,35 | 0,30 | 0,55 | 0,57 | 0,18 | - |
| Rezin və plastik məmulatlar istehsalı sahəsində fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal edilən məhsulun həcmi | 10762,8 | 18202,4 | 17025,1 | 19556,1 | 7047,3 | - 34,5 |
| Rezin və plastik məmulatları istehsalı üzrə ümumi məhsul həcmində payı, faizlə | 3,55 | 5,45 | 4,35 | 5,21 | 1,79 | - |

*Mənbə: ARDSK-dən əldə edilmiş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Həmin iqtisadi fəaliyyət sahəsində fərdi sahibkarların 2017-2021-ci illərdə ən yüksək istehsal göstəricisi Bakı, Abşeron, Gəncə-Qazax və Aran iqtisadi rayonuna, aşağı istehsal həcmi isə Yuxarı Qarabağ, Quba-Xaçmaz  və Naxçıvan iqtisadi rayonuna məxsusdur.

Əldə edilən nailiyyətlərə baxmayaraq, neft-kimya sənayesi üzrə regional qaydada fərdi sahibkarlığın inkişaf etdirilməsində hələ

də problemlər mövcuddur.İlk növbədə onu qeyd edək ki, bu sahədə çalışan fərdi sahibkarların böyük əksəriyyəti Bakıda fəaliyyət göstərir.Regionlarda fərdi sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması məqsədi ilə fərdi sahibkarlığın inkişafına yardımçı olacaq mərkəzlərin fəaliyyət göstərməsi məqsədəuyğundur. Bu mərkəz ilk növbədə neft-kimya sənayesi üzrə məhsul istehsal edən fərdi sahibkarların satış fəaliyyətinin təşkili, alıcıların tapılması, xarici bazarlara çıxış problemlərini diqqətdə saxlamalıdır.

**Rezin və plastik məmulatlar istehsalı sahəsində fəaliyyət göstərən fərdi sahibkarların iqtisadi rayonlar üzrə istehsal etdiyi məhsul həcmi, min. manat.**

**Cədvəl 2.**

| Rezin və plastik məmulatları istehsalı | Fərdi sahibkarların istehsal həcmi | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-cu ildə 2017-ci ilə nəzərən dəyişmə tempi, faizlə |
| Bakı şəhəri | 1050,0 | 3364,3 | 3975,7 | 4717,7 | 1685,5 | + 160,5 |
| Abşeron | 1354,1 | 1742,7 | 3014,3 | 3522,8 | 956,1 | - 29,4 |
| Gəncə-Qazax | 1207,1 | 1102,0 | 1426.1 | 1651,6 | 896,5 | - 25,7 |
| Şəki-Zaqatala | 911,7 | 1184,2 | 1582,8 | 1540,9 | 524,9 | - 42,4 |
| Lənkəran | 901,0 | 882,2 | 1197,2 | 1458,8 | 512,1 | - 43,2 |
| Quba-Xaçmaz | 500,0 | 720,3 | 1205,3 | 1102,9 | 422,4 | - 15,5 |
| Aran | 1229,4 | 2189,5 | 3203,7 | 3986,9 | 805,4 | - 34,5 |
| Yuxarı Qarabağ | 45,8 | 87,6 | 92,8 | 51,7 | 262,8 | + 5,7 dəfə |
| Kəlbəcər-Laçın | - | - | - | - | - | - |
| Dağlıq Şirvan | 827,5 | 789,5 | 1234,7 | 1103,3 | 431,4 | - 47,9 |
| Naxçıvan | 2736,2 | 6140,1 | 92,5 | 419,5 | 540,2 | - 81,3 |

*Mənbə: ARDSK-dən əldə edilmiş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Təəssüflə qeyd etməliyəm ki, fərdi sahibkarlar məhsul istehsalından əvvəl marketinq araşdırmalarını həyata keçirmirlər. Qərb ölkələrində fəaliyyətin planlaşdırılması zamanı önəmli istiqamətlərdən biri bu olsa da biz də yanaşma fərqlidir.Bu mərkəzlər ilk növbədə fərdi sahibkarların bu istiqamətdə düzgün fəaliyyət

həyata keçirə bilmələri üçün konsaltinq xidmətləri göstərməli, özlərinin informasiya bazalarını formalaşdırmalı, regionlar üzrə potensial alıcılar müəyyənləşdirib satışın həyata keçirilməsində fərdi sahibkarlara yardım göstərməlidirlər.Hətta vahid elektron informasiya bazasının formalaşması nəticəsində, həmin məlumat mərkəzi vasitəsi ilə regionlardan da potensial alıcılarla əlaqə qurulma imkanları yarana bilər.Bu mərkəzlərə onlayn qaydada regionlardan da girişin təmin edilməsi nəticəsində ölkə üçün önəmli bir informasiya bazası formalaşdırmaq olar.

Neft-kimya sənayesində fəaliyyət göstərən fərdi sahibkarlıq müəssisələrində əsas istehsal fondlarının yüksək aşınma dərəcəsi və aşağı templə yeniləşməsi, diversifikasiya və innovasiya fəaliyyətinin qeyri-qənaətbəxş təşkili orada beynəlxalq keyfiyyət standartlarına cavab verən, rəqabətqabiliyyətli, xarici bazarlarda satıla biləcək məhsul istehsalına maneçilik törədir.İdxal edilən sənaye məhsullarının tərkibində neft-kimya məhsullarının xüsusi çəkisi yüksəkdir. Bütün bu faktlar sahənin innovativ inkişafı istiqamətində əsaslı dəyişikliklərin edilməsini labüd edir.

Eyni zamanda neft-kimya sahələri üzrə məqsədli innovasiya proqramının işlənməsi və həyata keçirilməsinin zəruri hesab edilir.Bu məqsədlə aşağıdakı praktiki, elmi və metodoloji yanaşmalara üstünlük verilməlidir:

►Neft-kimya sənayesi məhsullarının emalı müəssisələrində fəaliyyət standartlarının beynəlxalq miqyasda qəbul edilmiş metodologiyaya uyğunluğunun hesablanması;

►İstehsal fəaliyyətinə mütərəqqi texnoloji proseslərin və avadanlıqların tətbiqinin öyrənilməsi, həmçinin də bunun əsaslandırılması;

►Səmərəli marketinq fəaliyyəti fonunda müəssisələrin mənfəətinin artırılmasının təmin edilməsi və s.

**Müddəa 5.Fərdi sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin yeni çağırışlar kontekstində formalaşdırılan mexanizmləri ;**

Ölkəmizin iqtisadi fəaliyyət sahələrində fərdi sahibkarlığın inkişafı aşağıdakı səbəblərdən ləng və müəyyən qədər səmərəsiz gedir:

-Sahibkarlığın tənzimlənməsi baxımından mövcud bazanın uyğunsuzluğu;

-İnfrastrukturun formalaşması proseslərinin yarımçıq qalması və idarəetmə formalarının müxtəlifliyi, onların bazar münasibətləri prinsiplərinə uyğun gəlməməsi;

-Sahibkarlıq sahəsində kadrların hazırlanması və yenidən hazırlanmasının zəif koordinasiyası və s.

Bu sahədə yüksək iqtisadi nəticələr əldə etmək üçün aşağıdakılara xüsusi diqqət yetirilməsi məqsədəuyğun olardı:

-Emal sənayesində innovasiya tipli fərdi sahibkarlıq fəaliyyətinin səviyyəsinin artırılması, həm maliyyələşdirmə mexanizmlərində, həm də sənaye siyasətində mərhələli və sahələrə fərqli yanaşmaya üstünlük verilməsi ;

-Sahibkarlıq fəaliyyəti ilə bağlı olan hüquqi bazanın möhkəm sosial təminat statusu daşıması və s.;

**Müddəa 6.Neft-kimya sənayesində uzunmüddətli dövrü əhatə edən fərdi və mikro sahibkarlığa dəstək məqsədli proqramın işlənilməsinin məqsədəuyğunluğu, onun strukturu və həyata keçirilməsi zəruri hesab edilən kompleks tədbirlərin təsnifatı ;**

Azərbaycanın neft-kimya sənayesində fəaliyyət göstərən müəssisələrinin 45%-nin mikro statusuna malik olduğunu, 3534 nəfər fərdi sahibkarın məhsul (iş, xidmət) istehsal etdiyini və illər üzrə onların birlikdə payına sahədə buraxılan məhsulun təqribən 10-30%-nin düşməsini nəzərə alaraq həmin sahibkarlıq subyektlərinə dövlət dəstəyini təmin etmək, onların davamlı sosial-iqtisadi və innovativ inkişafını təmin etmək, bu istiqamətlərdə mövcud mexanizmi təkmilləşdirmək üçün “Neft-kimya sənayesində 2021-2025-ci illlər üçün fərdi və mikrosahibkarlığa dəstək məqsədli proqramı”n işlənilməsi və təsdiq edilməsi məqsədə uyğun olardı.

Bizim fikrimizcə, həmin proqramın məzmununda aşağıdakı vacib istiqamətlər öz əksini tapmalıdır:

-Mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi ;

-Fərdi və mikro sahibkarlıq subyektlərinə maliyyə və investisiya dəstəyinin göstərilməsi;

-Güzəştli vergi və kredit sistemin tətbiqi;

-Yeni texnologiya, mütərəqqi menecment forma və metodlarının tətbiqi ;

-Fərdi və mikro sahibkarların əməyinin motivləşdirilməsi üzrə mütərəqqi sistemlərin tətbiqi;

-"Biznes məktəbi" yaratmaqla gənc və qadın sahibkarlığının inkişaf etdirilməsi;

-Biznes inkubatorlarının yaradılması;

-Startap layihələrinin işlənilməsi və həyata keçirilməsi (iqtisadi regionlar üzrə) ;

-Fərdi və mikro sahibkarlığa dəstək infrastrukturunun (hüquqi məsləhət, İKT-nin tətbiqi, texnologiyaların transferi, mühasibat uçotu, biznes planlarının tərtibatında metodiki dəstək, logistika xidməti, kadr hazırlığı, ixtisasartırma və s.) formalaşdırılması;

Həmin proqramın icrası kontekstində "Neft-kimya sənayesində sahibkarlığın inkişafı mərkəzi"nin qeyri-kommersiya təşkilatı statusunda yaradılması və onun bazasında Subsidiya Fondunun təsis edilməsi bütünlükdə fərdi və mikro sahibkarların maliyyələşdirilməsinə, onların davamlı inkişafına dəstək ola biləcək aşağıdakı təşkilati və motivləşdirici tədbirlərin həyata keçirilməsinə imkan vermiş olacaqdır : -qabaqcıl təcrübənin öyrənilməsi üçün lazımi informasiyaların əldə edilməsi; -rəqiblər haqqında məlumatların toplanması və sahibkarlara təqdim edilməsi ; -biznes-planlarının nəticələrinin təhlili və qiymətləndirilməsi prosesinə təşkilati köməklik göstərmək və s.

**Müddəa 7.Beynəlxalq təcrübə nəzərə alınmaqla fərdi sahibkarlıq fəaliyyətində tətbiq edilən vergi sisteminin təkmilləşdirilməsi istiqamətləri ;**

Biz istəyiriksə vergiqoyma mexanizmi üzrə təkmil nəticələr əldə edək, bunu digər iqtisadyönlü tənzimləmə elementlərinin inkişaf tipini nəzərə almaqla bacara bilərik.Bu məqsədlə tətbiq edilən vergi siyasəti makroiqtisadi səviyyədə təhlil olunmalıdır.

Bir çox dünya dövlətlərində olduğu kimi ölkəmiz də tətbiq edilən vergi mexanizmində xalqın istər iqtisadi, istərsə də siyasi cəhətdən inkişafının xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Real şəkildə vergi mexanizminin tətbiqində bu xüsusiyyətlər öz əksini tapmalıdır.Ölkəmizdə müasir dövrdə vergitutma mexanizmi

formalaşdıran bir sıra məsələlərin nəzərə alınması məqsədəmüvafiqdir:

-sahibkarların təşviqi məqsədi ilə istehlak həcminin stimullaşdırılması, özünümaliyyələşdirmənin genişləndirilməsi.

-nağdsız əməliyyatlara sahibkarlıq subyektlərinin marağının artırılması məqsədi ilə apardıqları əməliyyatlara uyğun olaraq müəyyən müddətdən bir mükafatlandırılması mexanizminin təkmiləşdirilməsi;

-ölkə üzrə mövcud qanunvericlik bazasının müasir beynəlxalq tələblərə uyğun olaraq təkmilləşdirilməsi;

-vergi sistemində həyata keçirilən tədbirlərin tam olaraq elektronlaşdırılması istiqamətində sürətli fəaliyyətin reallaşdırılması;

-xarici ölkələrdə olan istər yerli,istər əcnəbi sahibkarlıq subyektlərinin ölkəyə investisiya qoymaları və ya burda fəaliyyətləri üçün daha təkmil elektron vergi sisteminin formalaşdırılması və müxtəlif tipli güzəştlərin edilməsi ;

-satış fəaliyyəti həyata keçirən sahibkarların fəaliyyət növlərinə uyğun olaraq (topdan və ya pərakəndə satış) fərqləndirici meyarların təkmilləşdirilməsi və s.

**Müddəa 8.İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin mövcud təcrübəsindən faydalanmaqla fərdi sahibkarların kredit təminatı mexanizminin modernləşdirilməsinə dair işlənilən əməli xarakterli alətlər və tövsiyyələr;**

Kredit təminat mexanizminin təkmilləşdirilməsi məqsədi ilə ölkə üzrə fəaliyyət göstərən kommersiya bankları fərdi sahibkarlara kreditlərin verilməsi zamanı təminatlarla bağlı hissədə müəyyən təkmilləşdirmələr eləməsi zəruri hesab edilir.

Fərdi sahibkarların maliyyə ehtiyaclarının təmin edilməsi məqsədi ilə beynəlxalq təcrübəyə uyğun ölkəmizdə mövcud olan banklardan əlavə kredit kooperativlərinin fəaliyyətə başlaması bu istiqamətdə səmərəliliyin artırılmasına səbəb ola bilər.Həmin məqsədlə dövlət aşağıdakı tədbirləri reallaşdırsa daha effektiv nəticələrin əldə edilməsi mümkün olar :

-fəaliyyət göstərən fərdi sahibkarlara subsidayalarının verilməsinə dair beynəlxalq təcrübəyə əsaslanan dövlət proqramlarının həyata keçirilməsi;

-fərdi sahibkarla kredit verən bank təşkilatlarının vergi dərəcələrinin azaldılması;

-fərdi sahibkarlığın inkişafa dəstək göstərək kredit təşkilatlarının dövlət tərəfindən subsidiyalaşdırma sisteminin hazırlanması və tətbiqi.

Fərdi sahibkarlıq fəaliyyətinin kreditləşmə mexanizmin təkmiləşdirilməsində aşağıdakı tədbirlərin görülməsi daha da məqsədəuyğundur :

-Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu hər il ayırdığı güzəştli kreditlərin əvvəlki illərə nisbətən daha böyük bir hissəsini ölkənin bütün rayonları üzrə “fərdi sahibkarlar”a ayırılması;

-Azərbaycan Repsublikasının Mərkəzi Bankı kredit təşkilatlarının verdiyi kreditlərin müəyyən hissəsinin fərdi sahibkarlara verilməsi ilə əlaqədar kredit təşkilatları qarşısında müvafiq tələbin qoyması və bu prosedurun stimullaşdırılması üçün tədbirlər görməsi ;

-İqtisadiyyat Nazirliyi dəstəyi ilə müxtəlif qrant müsabiqələrində iştirak etməklə fərdi sahibkarların inkişafı, bu kateqoriyadan olan şəxslərin maarifləndirilməsi və buna uyğun olaraq layihələrin həyata keçirilməsi ilə əlaqədar tədbirlər çərçivəsində “C” kateqoriyasında (“fiziki şəxslərin layihələri”) qəbul ediləcək layihələr ilə bağlı kriteriyalarda “fərdi sahibkarlığın dəstəklənməsi” bəndinin əlavə edilməsi və s.

Bütün qeyd edilənləri ümumiləşdirsək, fərdi sahibkarların maliyyə vəsaitinə çıxış yolları tapmaları üçün hər zaman yeniliklərdən istifadə etməli,yaradıcı ideyalarını təkmilləşdirməli və həyata keçirməlidirlər. Bu zaman isə onlara dövlətin, kredit təşkilatlarının maliyyə dəstəyi və biznes-inkubatorlar köməklik göstərməli, kredit təminat mexanizminin yaxşılaşdırılması məqsədi ilə aparılan islahatlar beynəlxalq təcrübəyə uyğun şəkildə daha da təkmilləşdirilməlidir.

**Tədqiqat işi üzrə aşağıdakı nəticələrə gəlinmişdir :**

Dissertasiya işində aparılmış elmi tədqiqatlar, təhlillər araşdırmalar bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir :

1)İlk növbədə neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin kəmiyyətcə az olması qeyri-neft sektorunun tərəqqisi üçün mənfi hal hesab edilməlidir.

2)Neft-kimya sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin peşəkarlıq və ixtisaslaşma səviyyələrinin yetərli səviyyədə olmaması lazımı səviyyədə gəlir əldə etməyə mane olan amil hesab edilir.

3)Ölkədə daxilində fərdi sahibkarlıq subyektləri ilə keçirilən seminarların, treyninqlərin sayının az olması, bununla yanaşı fərdi sahibkarlıq subyektlərinin istər ölkə daxilində, istərsə də ölkə xaricində keçirilən bu tədbirlərə marağını az olması inkişafa öz təsirini göstərir.

4)Fərdi sahibkarlıq fəaliyyətinin dövlət tənzimləsi prosesində illər üzrə müxtəlif qanunlar qəbul olunmasına, sərəncamlar, fərmanlar imzalanmasına baxmayaraq, fərdi sahibkarlıq fəaliyyətinin tənzimlənməsində boşluqlar vardır.

5)Fərdi sahibkarların dəstəklənməsi məqsədi ilə mövcud infrastrukturdan istifadənin yetərli səviyyədə olmaması, istər maliyyə, istər kredit, istərsə də investisiya dəstəyinin lazımi səviyyədə göstərilməməsi, elmi-metodiki, informasiya və kadr dəstəyinin təmin edilməməsi bu sahədə mövcud olan digər problemlər kimi qeyd edilə bilər.

6)Neft-kimya sənayesi üzrə son illərin göstəricilərinə əsasən istehsalda illər üzrə artım tempi müşahidə olunsa da, artım faizinin ümumi sənaye sektorundakı payının azlığı bu sahənin lazımı səviyyədə olmamasının xəbərçisidir.

7)İstər ölkə daxilində, istər ölkə xaricində satışa çıxarılan məhsul həcminin az olması, ölkədaxilində əhalinin tam olaraq neft-kimya sənayesi məhsulları ilə təmin olunmamasına, ölkə xaricindən gələn bu sahədəki gəlirlərin isə həcminin az olmasını göstərir.

**Neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətində təklif və tövsiyyələr :**

-Ayrı-ayrı istiqamətlər üzrə qoyulan investisiyaların düzgün şəkildə bölünməsi üçün dövlət tərəfindən tənzimləmə siyasəti həyata keçirilməlidir;

-Xarici və daxili investorların cəlb edilməsi üçün beynəlxalq təcrübəyə əsaslanan mexanizm formalaşdırılmalıdır;

-Beynəlxalq maliyyə qurumları və təşkilatları ilə neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinə investisiya qoyuluşu sahəsində əməkdaşlıq genişləndirilməlidir.

-Xarici investorlar üçün sabit və beynəlxalq standartlara uyğun hüquqi-normativ baza formalaşdırılmalıdır.

-Xarici bazarlarda rəqabətə dözümlü və beynəlxalq səviyyədə qəbul edilmiş keyfiyyət göstəricilərinə uyğun neft-kimya sənayesi məhsulların istehsal edilməsinə yüksək məbləğlərdə investisiya qoyuluşu edilməlidir;

-Ölkənin mövcud ehtiyatlarından əlverişli faydalanmaqla neft-kimya sənayesi sürətli inkişaf etdirilməlidir;

-Fərdi sahibkarlıq fəaliyyətinin respublikamızdakı vəziyyətini xarakterizə edən rəsmi internet saytı fəaliyyət göstərməlidir, veb səhifədə qeyri-neft sahəsində (o cümlədən neft-kimya sənayesində) qeydiyyata alınmış, aktiv fəaliyyətdə olan subyektlər barədə şəffaf və ətraflı məlumatlar yerləşdirilməlidir. Lazımı informasiya portalının yaradılması bir növ həm şəffaflıq göstərici kimi qələmə verilə bilər, eyni zamanda bu sahə ilə bağlı informasiyaların əldə edilməsi daha asan olar.

-Neft-kimya sənayesinin inkişafında maraqlı olan xarici investorlarla yerli fərdi sahibkarların əlaqələrinin formalaşdırılmasına yardımcı olacaq "koordinatorluq" qurumu təsis edilməlidir;

-Müasir tələblərə cavab verən infrastrukturun qurulması məqsədi ilə investisiya siyasəti formalaşdırılmalıdır;

-Sahibkarlar üçün sağlam mühitinin yaradılması, mövcud problemlərin aradan qaldırılması məqsədi ilə dövlət təkmilləşdirmə siyasəti həyata keçirməlidir;

-Lizinq imkanlarının mövcud vəziyyətinin təhlil edilməsi, sahibkarların lehinə daha yüngül şərtlərlə bu fəaliyyət reallaşdırılmalıdır;

-Bakı və Sumqayıtdan əlavə, bölgələrdə mövcud olan resurslardan faydalanmaqla, regionun infrastruktur potensialı

qiymətləndirilməklə yeni neft-kimya müəssisələrinin yaranması məqsədi ilə istər yerli, istər xarici investorlar cəlb edilməlidir ;

-Regionlarda neft-kimya sənayesi üzrə fərdi sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədi ilə zəruri infrastuktur və instisional dayaqlar formalaşdırılmalıdır;

-Fərdi sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı olan boşluqlar yeni qəbul ediləcək qanunlar, qanunvericilik aktları, sərəncam və fərmanlarla doldurulmalıdır;

-İstehsal olunan məhsulların satışına və ixracına təminatın yaradılması məqsədi ilə sərhədlərdə yeni yaradılan ticarət zonalarına fərdi sahibkarlar cəlb edilməlidir ;

-Fərdi, mikro və kiçik sahibkarlıq subyektləri klaster və sənaye məhəllələrinin idarəetmə strukturlarına fəal cəlb edilməlidir ;

-Beynəlxalq təcrübədən daha çox faydalanılmalı, həmin təcrübələrə uyğun olaraq ölkə fərdi sahibkarlıq fəaliyyətinin inkişafının təkmilləşdirilməsi mexanizmi hazırlamalıdı;

-Neft-kimya sektorunda çalışmış pensiya yaşında olan insanların fərdi sahibkarlıq fəaliyyəti göstərmələri üçün imkanlar yaradılmalı, onların təcrübələrindən faydalanılmalıdır;

-Daxili və xarici bazarda baş verən konyuktur dəyişikləri ilə bağlı neft-kimya sənayesi məhsulu istehsalçılarına zəruri informasiyalar verilməlidir ;

-Neft-kimya sənayesi məhsullarının istehsalçılardan istehlakçılara çatdırılması prosesi daha təkmil, texnoloji yeniliklərə cavab verən formada olmalıdır;

-Yüksək kredit faizləri, ağır girov tələbləri və bir sıra digər fərdi sahibkarlıq fəaliyyətinin maliyyələşməsində çətinliklər yaradan hallar aradan qaldırılmalıdır;

-Qeyri-neft sektorunun bölmələri arasında prioritet istiqamətlər seçilməli, neft-kimya sənayesi ora daxil edilməli və bu sahələrin inkişaf etdirilməsini nəzərdə tutan məqsədli proqramlar tərtib edilməlidir;

-İqtisadi mexanizm təkmilləşdirilməli, yəni müəssisənin daim dəyişən şərtlərə asanlıqla uyğunlaşmasına, inamla ayaq üstə dayanmasına imkan verəcək motivasiya və idarəetmə metodlarının, təşkilatı strukturlarının belə bir qurluşu formalaşdırılmalıdır ;

Eyni zamanda fərdi sahibkarın üzərinə düşən bəzi öhtəliklər də vardır ki, onların da lazımı səviyyədə yerinə yetirilməsinə sahibkarlıq subyektləri diqqət etməlidir ;

- ilk növbədə, əldə etdikləri kredit vəsaitlərini və ƏİF-in amortizasiya ayırmaları təyinatı üzrə xərcləməlidirlər ;

- məqsədli innovasiya layihələrinin tətbiq edilməsinə daha çox üstünlük verməli,ilin yekunlarlarına əsasən əldə edilmiş qazancın bir hissəsinin innovasiya texnologiyalarının tətbiqinə yönəltməklə yeni növ məhsul istehsalına nail olunmalıdır ;

- həyata keçirilən tədbirlərin fonunda yüksək ödənişli iş yerlərinin yaradılması, tullantısız, az material və enerji tutumlu texnologiyaları tətbiq etməklə,müəssisə və sahə standartlarından istifadənin - beynəlxalq standartlara keçidin təmin edilməsi hesabına idxalı əvəz edən ixrac yönümlü keyfiyyətli məhsul istehsalının həcmi və çeşidinin artırılması təmin edilməlidir;

•özlərinin istehsal, təchizat və satış fəaliyyətində elektron qaydada ödənişlərə üstünlük verilməlidir ;

•marketinq fəaliyyətinin səmərəli təşkili fonunda qalıq məhsulun həcmi minimum endirilməlidir və s.

•imkanlardan, qaynaqlardan maksimum istifadə edilməli, yəni potensiallar sistematik şəkildə müəyyənləşdirilməli və istifadə olunmalıdır.

Düşünürük ki, neft-kimya sənayesində fərdi sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində atılacaq addımlar, görüləcək tədbirlər güclənməlidir.Bu tədbirlər hesabına bazarda qiymtələrin ucuzlaşmasına, respublikamızda neft-kimya sənayesi məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsinə nail olmaq mümkündür.

Hesab edirik ki, tədqiq edilən sənaye sahəsində fərdi (mikro) sahibkarlığın davamlı inkişafına nail olmaq üçün orada 2021-2025-ci illər üzrə bu istiqamətdə proqramın tərtibi və reallaşdırılması məqsədi ilə Subsidiya Fondunun yaradılması məqsədə uyğun olardı.İşdə proqramın strukturu və Fondun həyata keçirəcəyi tədbirlərin təsnifatı verilmişdir.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır :**


1. Xankişiyev F.X., “Milli iqtisadiyyatın inkişafında sahibkarlığın rolu, təkrar istehsal prosesi və innovasiya amili” //Audit – elmi praktiki jurnal, №3,Bakı, BBU, 2018, s. 53-58
2. Xankişiyev F.X., “Fərdi sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üzrə beynəlxalq təcrübə” // Audit – elmi praktiki jurnal №2, Bakı, BBU. 2018, s.103-112.
3. Xankişiyev F.X.,“Kimya sənaye sahəsinin müasir vəziyyətinin təhlili”// Odlar yurdu universitetinin elmi və pedaqoji xəbərləri jurnalı, №54, Bakı, OYU, 2020, s.108-113.
4. Xankişiyev F.X., “Azərbaycan Respublikasının kimya sənayesi üzrə idxal fəaliyyətinin müasir vəziyyəti”//AMEA-nın “İqtisadi Artım və İctimai Rifah” jurnalı, № 1, AMEA, Bakı,2021, s.127-136.
5. Xankişiyev.F.X., Əliyev T.N., “Azərbaycanda sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması prosesinin təşkili” // İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr" mövzusunda gənc tədqiqatçıların (magistrant və doktorant) Respublika Elmi Konfransı, Lənkəran, LDU, 2018, s.83-84.
6. Xankişiyev F.X., “Sahibkarlıq fəaliyyətinin təşkilinə təsir edən amillər” // “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Təbiət və humanitar elm sahələrinin inkişaf problemləri” mövzusunda Respublika Elmi Konfransın materialları, Lənkəran, LDU. 2017, s.62-63.
7. Xankişiyev F.X., “Fərdi sahibkarlığın təşkili xüsusiyyətləri” // “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perespektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, BBU, 2017,s.473-477.
8. Xankişiyev F.X., “Fərdi sahibkarlıq fəaliyyətinin təşkili xüsusiyyətləri” // “Milli iqtisadiyyatın perespektiv inkişafı üzrə Strateji Yol Xəritəsi : insan kapitalının formalaşmasının prioritet

istiqamətləri” mövzusunda elmi-praktiki konfransın materialları, Bakı, BBU, 2018, s.385-395.
9. Xankişiyev F.X., “Azərbaycanda sahibkarlıq fəaliyyətinin tarixi və onun inkişafında dövlət tənzimlənməsinin rolu” //”Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci “Azərbaycan Xalq Cumhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları,Bakı, BBU,2018,s.411-415.
10. Xankişiyev F.X.,“Fərdi sahibkarlıq fəaliyyətində lisenziyalaşdırma” // “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin aktual problemləri” mövzusunda Respublika Elmi-Praktiki Konfransının materialları,Bakı,AzMİU “Nəşriyyat- Poliqrafiya Mərkəzi”, 2018, s. 218-220.
11. Xankişiyev F.X.,Fərdi sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsinin təhlili // «Müasir dövrdə effektiv idarəetmənin problemləri» mövzusunda Respublika Elmi-Praktiki Konfransının materialları, Bakı, “Mütərcim” Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018,s.93-96.
12. Ханкишиев Ф.Х., “Организация индивидуального предпринимательства на химических и нефтехимических предприятиях Азербайджана” // Финансовая экономика, Всероссийский научно – аналитический журнал, № 2, часть 5, Москва, “ИП Лукин А.С.” , 2020, с.489-494.
13. Ханкишиев Ф.Х., “Состояние и перспективы развития индивидуального предпринимательства в нефтехимической промышленности Азербайджана” //“Поведенческие теории и практика российской науки” сборник научных статей по итогам международной научно-практической конференции, Санкт-Петербург, «Турусел», 2021, с. 210-214.
14. Khankishiyev F. Kh., “Ways to increase the economic efficiency of individual entrepreneurship in the petrochemical industry” //Audit-scientific-practical journal № 1 (31), Baku, BBU, 2021, p. 95-105.
15. Khankishiyev F. Kh., “Modern condition of export operations of the chemical industry of the Republic of Azerbaijan” // “Інноваційні технології у плануванні територій”, матеріали

Міжнародної науково-практичної конференції, Одеса, “ОДАБА”, 2020,p.180-187.
16. Khankishiyev F. Kh., “Analysis of the current situation of individual entrepreneurs operating in the petrochemical industry in the regions of the Republic of Azerbaijan” // “Global and regional aspects of sustainable development” 2nd International Scientific and Practical Conference materials, №43, Copenhagen, “İntercorf”, 2021, p. 21-29.
17. Khankishiyev F.Kh., “General characteristics of individual entrepreneurship in the Republic of Azerbaijan” //“Scientific research in XXI century” 8th International Scientific and Practical Conference materials, №44,Ottawa, “İntercorf”, 2021, p.37-44.
18. Khankishiyev F. Kh., “Improving the tax system applied to individual entrepreneurship in the Republic of Azerbaijan” // “Scientific community : Interdisciplinary research” 3th International Scientific and Practical Conference materials, №45, Hamburg, “İntercorf” , 2021, p.33-40.
19. Khankishiyev F. Kh.,“State support mechanism for women individual entrepreneurs working in the processing industry in the Republic of Azerbaijan //b“Modern movement of science” 12th İnternational scientific and practical internet conference, Dnipro, «WayScience», 2021, p.95-97.
20. Khankishiyev F. Kh., “Modeling of the mechanism of credit provision of individual entrepreneurs in the Republic of Azerbaijan”// “Challenges in science of nowadays” , 8th International Scientific and Practical Conference materials, № 48, Washington, “İntercorf”, 2021, p.106-114.
21. Khankishiyev F. Kh., “The current state of the petrochemical industry and approaches in this direction” // “Science and practice: Implementation to modern society”, 8th International Scientific and Practical Conference materials, № 59, Manchester, 2021, p. 58-64.

Dissertasiyanın müdafiəsi 23 iyun 2023-cü il tarixində saat 11⁰⁰ Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED-1.10 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1143, Bakı şəhəri, H.Cavid pr. 115.

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (economics.com.az) yerləşdirilmişdir.

Avtoreferat 12 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:12.05.2023

Kağızın formatı:  A5

Həcm:36129 işarə

Tiraj : 100